# VALİDEYN NƏZARƏTİ SİSTEMİ ÜZRƏ İSTİFADƏÇİ TƏLİMATI

**Bakı – 2016**

# 1. SİSTEMƏ GİRİŞ

Valideyn Nəzarəti Sisteminə daxil olmaq üçün valideynlər www.edu.az saytına daxil olaraq ***Valideyn Nəzarət Səhifəsi*** üzərinə basmalıdır.




**Şəkil 1. Valideyn Nəzarət Səhifəsi**

Açılmış pəncərədə valideyn məktəb tərəfindən ona verilmiş xüsusi istifadəçi adını və şifrəsini daxil etməlidir.




**Şəkil 2. Sistemə giriş**



Qiymət | 1 | « 7 Həftə /15 Fevral - 21 Fevral » | 8 | Fevral | 2016

| Tarix / Fənn | 15 Fevral<br>Bazar ertəsi | 16 Fevral<br>Çərşənbə axşamı | 17 Fevral<br>Çərşənbə | 18 Fevral<br>Cümə axşamı | 19 Fevral<br>Cümə | 20 Fevral<br>Şənbə | 21 Fevral<br>Bazar |
|---|---|---|---|---|---|---|---|
| AR Konstitusiyası | | | | | | | |
| Azərbaycan dili | | | | | | | |
| Azərbaycan tarixi | | | | | | | |
| Biologiya | | 90 | | | | | |
| Coğrafiya | | | | | | | |
| Cəbr | | | 100 | | | | |
| Fizika | | | | | | | |
| Fiziki tərbiyə | | | | 90 | | | |
| Fransız dili | | | | 100 | | | |
| Fənlərarası təlim | | | | | | | |
| Həndəsə | | | | | | | |
| Kimya | | | | | | | |
| Rus dili | | 100 | | | | | |
| Rəsmxət | | | | | | | |
| Tarix | | | | | | | |
| İnformatika | | | | | | | |
| İngilis dili | | | | | | | |
| İnsan və cəmiyyət | | | | | | | |
| İqtisadiyyatın əsasları | | | | | | | |
| Ədəbiyyat | | | | | | | |

**Şəkil 3. Valideyn Nəzarət Səhifəsi**

Səhifənin yuxarı hissəsində sistemə daxil olmuş valideynin övladı və ya övladları göstərilir. Əgər valideyn Elektron Məktəb İdarəetmə Sistemində (ASM) bir neçə şagird ilə əlaqələndirilərsə, burada həmin şagirdlər göstəriləcək.

Valideyn qiymət/qaiblərə baxmaq istədiyi övladının adı üzərində mausla bir dəfə basmaqla, həmin şagirdə aid olan məlumatlara baxa bilər.

Cədvəlin sol hissəsində yuxarıdan aşağıya seçilmiş şagirdin sinfi ilə əlaqəli olan bütün fənlər siyahı şəklində göstərilir.




**Şəkil 4. Fənlər**

Cədvəlin soldan sağa gedən hissəsində təqvim üzrə tarixlər və həftə günlərinin adı göstərilir.




**Şəkil 5. Tarixlər**

Qiymət - aşağıya açılan siyahıdan valideyn övladının qiymət və ya qaiblərinə baxa bilər.



- aşağıya açılan siyahıdan valideyn baxmaq istədiyi ayı seçə bilər.



- aşağıya açılan siyahıdan valideyn baxmaq istədiyi ili seçə bilər.



sağ və sol oxları istifadə etməklə valideyn həftələr üzrə hərəkət edə bilər. Sol hissədə seçilmiş həftədən əvvəlki həftələrə keçidi, sağ hissədə isə seçilmiş həftədən sonrakı həftələrə keçidi icra etmək mümkündür.